# Məktəbəqədər yaşlı uşaqlarda yaranan idraki maraqların formaları və mərhələləri

**Günay Asim qızı Filmanova**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*Gəncə Dövlət Universiteti*
**E-mail:** *gunaynesibova8@gmail.com*

**Rəyçi:** p.ü.e.d., prof. Ş.T. Tağıyev,
p.ü.f.d., dos. T.S. Paşayev

**Açar sözlər:** emosional təzahür, səbəb-nəticə əlaqələri, idrak maraqlarının komponentləri, idrak maraqlarının təzahür göstəriciləri, bioloji və sosioloji məqsəd

**Ключевые слова:** эмоциональное проявление, причинно-следственные связи, компоненты познавательных интересов, показатели проявления познавательных интересов, биологическая и социологическая цель

**Key words:** emotional demonstration, causal relationships, components of the cognitive interests, indicators of cognitive interests, biological and sociological goals

Məktəbəqədər yaşlı uşaqlarda yaranan idraki maraqların formalarına və mərhələlərinə aydınlıq gətirmək məqsədilə pedaqoq və psixoloqların araşdırmalarına müraciət etdik. İ.M. Çvetkov (13), Q.İ. Şukina (14), V.N. Myasişev (11), N.Q. Marozova (10) idraki maraqları müəyyən edərkən, bilik sahələri və fənlər üzrə dərk etmə istiqamətlərini (idraki istiqamətləri) əsas götürmüşlər. Ümumiyyətlə, bu müddəa idraki maraqları maraq sahələrinə ayırmaq imkanı verir. Q.İ. Şukinanın fikrincə, idrak marağının xüsusiyyəti yalnız əşyalar və ya real hadisələr ilə sadəcə tanışlıqdan ibarət deyildir. "İdraki maraqların mahiyyəti onun obyektinin dərk etmə prosesi olmasındadır ki, ona daima hadisələrin mahiyyətinə nüfuz etməyə səy göstərmək (sadəcə informasiya istehlakçısı olmamaq), müəyyən bilik sahəsinə aid nəzəri, elmi əsasları dərk etmək, daima dərindən öyrənməyə cəhd göstərmək xarakterikdir" [3, s. 25].

Həmçinin Q.İ. Şukina diqqəti (14) ona yönəldir ki, idraki marağın predmetini insanın xüsusiyyəti təşkil edir: ətraf aləmi dərk etmək yalnız bioloji və sosioloji məqsəd üçün deyil, həm də insanın dünyaya real münasibəti – onun müxtəlifliklərinə nüfuz etməyə cəhd göstərməsi, şüurda səbəb-nəticə əlaqələrinin, qanunauyğunluqların və ziddiyyətlərin əks olunması üçün lazımdır. İdraki maraqlar elmi həqiqətlərə nüfuz etmək, dərk edilə bilmə dairəsini genişləndirmək, insanın seçdiyi bilik sahəsini və fəaliyyətini mənimsəmək üçün yeni yol və imkanların tapılmasına malik olur.

Eyni zamanda idrak maraqlarının formalaşdırılması müxtəlif şəxsi münasibətlərin formalaşdırılması ilə də bağlıdır: bu və ya digər elm sahəsinə, idrak fəaliyyətinə seçici münasibət, idraki həmkarları ilə ünsiyyət. Məhz bu əsasda dünyagörüşü, birgə anlaşma, birgə baxışlar formalaşır, onların fəal və emosional xarakterinə idrak maraqları kömək edir (14).

Bununla yanaşı, idraki maraqlar insanın bütün psixoloji proseslərini aktivləşdirərək, şəxsiyyəti fəaliyyət vasitəsilə real aləmi dəyişdirməyə sövq edir. O, özündə şəxsiyyətin psixoloji inkişafı üçün vacib olanların vəhdətini əks etdirir. İntellektual fəaliyyət zamanı axtarış, fərz etmə, tədqiqi yanaşma, məsələnin həllinə hazır olmaq özünü göstərir. Emosional təzahür – bu təəccüb etmə emosiyasıdır, həmçinin nə isə yeni bir şey gözləmək hissi, intellektual sevinc, nailiyyət hissidir. İdraki maraqların əsas təməlini informasiya, yeninin axtarılması təşkil edir.

Bu müəyyən etdiklərimizin təsdiqinə L.İ. Bajoviçin elmi işlərində də rast gəlirik. O, idraki maraqlara olan tələbatlardan birini – "insanı real gerçəkliyə istiqamətləndirən, onun subyektiv (xüsusi emosial vəziyyət) və obyektiv (fəaliyyət) tərəflərə ayrıldığını vurğulayan" biliklərdə görürdü (7, s. 3-14).

İdraki maraqların inkişafı sosial dairə, sahə və uşaq fəaliyyətinin xarakteri, təlim-tərbiyəsi ilə müəyyən edilir. Bu proses daha çox ailədən, pedaqoqlardan, pedaqoji texnologiyalardan asılıdır. Q.İ. Şukina (14) belə hesab edir ki, idrak maraqlarının hərtərəfli inkişafı prosesi mənəvi dəyərlərlə ünsiyyətdə olma məqamlarını özündə əks etdirir. O, həmçinin idrak maraqlarının inkişafında yaş amilini xüsusi vurğulayır, maraqların daha yüksək səviyyəyə keçməsinə kömək edən əldə olunmuş biliklərin roluna da böyük əhəmiyyət verir.

R.İ. Əliyev idrak maraqlarının inkişafının ümumi istiqamətlərini belə təsvir edir: xarici stimulllarla bağlı olan maraqdan, uşağın "daxili aləmi" ilə bağlı olan, daha mürəkkəb şərtlərdən doğan, xarici stimullardan azad marağa doğru; bəzən dağınıq maraqdan ("özüm də bilmirəm nə xoşuma gəlir", "hər şey xoşuma gəlir" (1, s. 70) daha da fərqli marağa doğru; təsadüfi təsirlərdən tez-tez dəyişikliklərə uğrayan maraqdan nisbətən sabit, davamlı marağa doğru; səthi maraqlardan dərin nəzəri əsasla səbəb-nəticə əlaqələrini, daxili münasibətləri, qanunauyğunluqları və elmi ideyaları üzə çıxardan maraqlara doğru.

Bu cür səciyyəyə biz N.K. Postnikovanın (12) tədqiqatlarında da rast gəlirik. Onun firkincə, artıq mənimsənilmiş mövcud biliklərlə bağlı olan idrak maraqları bu bilikləri qoruyub saxlayan yaddaşla əlaqəni tapıb üzə çıxarır. İdrak maraqlarının hərəkətvericisi təxəyyül və idrak olur. Onların köməyi sayəsində fəaliyyət zamanı müstəqillik, bacarıq, təşəbbüs üzə çıxarılır. Bu mövqe zamanı naməlum olanların üzə çıxarılmasına yönəlmiş idrak fəaliyyəti ilə maraqların eyniləşdirilməsi halı da müşahidə olunur.

Bir sıra işlərin təhlili (2; 5; 6; 14) göstərir ki, məktəbəqədər yaşli uşaqlarda idrak maraqlarının əsas forması situasiyalı maraqdır. Onun başlıca xüsusiyyəti parlaq emosional həyəcanlardan ibarətdir. Situasiyalı maraq məktəbəqədər yaş dövründən dərinləşməyə başlayır, davamlılığa və əhəmiyyətliliyə malik olur.

İlkin idraki münasibətlərin şəxsin davamlı xarakterinə çevrilməsi şəxsiyyətin formalaşması, onun təlim-tərbiyəsi prosesinin gedişi zamanı baş verir. B.Q. Ananyev belə hesab edirdi ki, daimilik və davamlılıq əldə etməklə idrak maraqları "əqli inkişaf və davranış üçün əsas təhrik gücünə çevrilir" (4, s.16). L.A. Qardonnun (8) fikrincə, belə bir vəziyyətdə düşüncə, axtarıcı xarakter daşıyır və iradi səylərlə birləşərək idraki məsələlərin həllinə cəhd göstərir.

Bununla əlaqədar, idraki maraqların inkişaf səviyyələrini səciyyələndirən müxtəlif təzahür formalarına dair fikirləri də nəzərdən keçirmək vacibdir. L.İ. Bajoviç (7) və N.Q. Marozovanın (10) tədqiqatlarında idrak maraqlarının mərhələli inkişafını əks etdirən iki əsas forma göstərilir:

1. Əşyanın xarici əlamətinə görə yaranan situativ maraq.
2. Fəaliyyətin mahiyyətini, onun şəxsi və ictimai əhəmiyyətini dərk etmək iqtidarında olan şəxsi maraq.

Fikrimizcə, idraki maraqların üç formasını müəyyən edən Q.İ. Şukinanın (14) təsnifatı daha diqqətə layiqdir.

1. Epizodik həyəcan xarakterli situativ maraq.
2. Əşyaya, obyektə və fəaliyyətə emosional-idraki münasibət kimi davamlı aktiv maraq.
3. Şəxsiyyətin istiqaməti kimi şəxsi maraq.

Burada, təbii xüsusiyyətlərdən biri kimi, marağın subyektiv, şəxsi tərəflərin spesifikliyini əks etdirən davamlılıq çıxış edir. Davamlı maraq, fəaliyyətə təhrik edərək insanın həyat və

fəaliyyətində mühüm rol oynayır, şəxsiyyətin əsas tərəflərindən birini özündə əks etdirir, onun dünyagörüşü və həyat müəyyənlikləri ilə sıx bağlı olur.

V.İ. Mişanina məktəbəqədər yaşlı uşaqların maraqlarının xarakterini öyrənərək, belə nəticəyə gəlmişdir ki, onlar davamlı olmayan xarakter daşıyır. Bəzi halda isə maraqlar situativ xarakter daşıyır. Çox zaman maraq emosional əsasda yaranır. Bununla yanaşı, V.İ. Mişanina kortəbii surətdə meydana çıxan, öz fəallığı və fəaliyyəti ilə fərqlənən davamlı idrak maraqlarını da qeyd etməyi bacarmışdır.

L.F.Zaxareviç (9) N.K. Postnikova (12) və başqalarının tədqiqatlarında təfəkkür fəaliyyəti zamanı məktəbəqədər yaşlı uşaqlarda davamlı marağın inkişaf mərhələləri müəyyən edilmişdir. Birinci mərhələdə tez nəzərə çarpan əşya və hadisələrin uşaqlar tərəfindən qavranılması əsasında epizodik və qısa müddətli maraqlar meydana gəlir. İkinci mərhələdə çox sayda xarici əlamətlərə, eyni faktlara diqqəti artırmaq sayəsində idrak maraqlarının genişləndirilməsi baş verir. Üçüncü mərhələdə isə təlimin məzmununun dərinliklərinə nüfuz etməklə motivasiyanın artırılması və səbəb əlaqələrinin yaradılması nəticəsində idrak maraqlarının daha da dərinləşdirilməsi baş verir. Dördüncü mərhələ zamanı təfəkkür fəaliyyətində davamlı marağın təzahürü meydana çıxır.

**Məqalənin aktuallığı**. Məktəbəqədər təhsil üçün təqdim olunmuş dövlət təhsil standartının hədəfləri sırasında, məktəbəqədər təhsilin başa çatacağı anda uşağın idrak maraqlarının səciyyəvi xüsusiyyətləri: idrak motivasiyası və maraqların inkişafı; idrak fəaliyyətinin formalaşması, şüurun yaranması; yaradıcılıq fəallığı və təxəyyülün inkişafı da vardır. Məqalədə öz əksini tapmış təhlil və araşdırmalar məhz bu məsələlərə həsr olunmuşdur.

**Məqalənin elmi yeniliyi.** Tədqiqat zamanı məzmunun zənginləşdirilməsi yolu ilə həyata keçirilən, böyük məktəbəqədər yaşlı uşaqların zehni komponentlərdən ibarət idrak maraqlarının strukturun formaları və mərhələləri; təfəkkür fəaliyyətinə idari-emosional cəlb olunma və ona emosional çalarlıq verilməsi; axtarış fəaliyyət üsullarının mənimsəməyə istiqamətlənməsi prosesin xüsusiyyətləri dəqiqləşdirildi.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqatın nəticələri məktəbəqədər təhsil üçün pedaqoqlar hazırlayan ali təhsil müəssisələrində "Məktəbəqədər yaşlı uşaqlarda idrak maraqlarının formalaşdırılması" xüsusi kursun məzmununa daxil edilərək istifadə oluna bilər.

## Ədəbiyyat

1. Əliyev R.İ. Psixologiya: Dərs vəsaiti. Bakı: Qanun, 2013.

2. Əlizadə Ə.Ə. Pedaqoji psixologiya (I, II kitab). Bakı: ADPU, 2010.

3. Актуальные вопросы формирования интересов в обучении / под ред. Г.И. Щукиной. М.: Просвещение, 1984.

4. Ананьев Б.Г. Познавательные потребности и интересы. Л.: Изд-во Ленинградского университета, 1998.

5. Беляев М.Ф. К вопросу о динамике интереса // Советская педагогика, 1999, № 11-12

6. Божович Л.И. Познавательные интересы и пути их изучения // Изв. Международная педагогическая академия, 2017.

7. Божович Л.И. Проблемы развития мотивационной сферы ребенка // Проблемы формирования личности / под ред. Д.И. Фельдштейна. М.: Международная педагогическая академия, 2015.

8. Гордон Л.А. Психология и педагогика интереса. Киев, 1940 .

9. Захаревич Л.Ф. Особенности возникновения и развития познавательного интереса

к сезонным изменениям в жизни растений у детей среднего и старшего дошкольного дошкольников возраста: Автореф. дис. … канд. пед. Наук. М., 2010.

10. Морозова Н.Г. Воспитание познавательных интересов у детей в семье: Кн. для родителей. М.: АПН РСФСР, 1991.

11. Мясищев В.Н. О потребностях как отношениях человека / Уч. записки ЛГУ. Ленинград: Психология и педагогика, 1986, № 214

12. Постникова Н.К. Развитие познавательных интересов у старших дошкольников: Дис…канд. пед. наук: ЛТТГУ им. А.И. Гертцена. Ленинград, 1968.

13. Цветков И.М. Интерес и динамика его развития у учащихся // Ученые записки Ярославского пед. ин-та, 1994, Вып. 1.

14. Щукина Г.И. Проблема познавательного интереса в педагогике. М.: Педагогика. 2001.

**Г.А. Фильманова**

## Формы и этапы познавательных интересов, возникающих у дошкольников

### Резюме

В статье описаны этапы развития постоянного интереса, выявленные у дошкольников в ходе исследования. На первом этапе возникают эпизодические и краткосрочные интересы, основанные на восприятии детьми ранее замеченных объектов и событий. На втором этапе происходит расширение познавательных интересов за счет повышенного внимания ко многим внешним признакам и к тем же фактам. На третьем этапе происходит углубление познавательных интересов в результате повышения мотивации и установления причин связей путем проникновения в глубины содержания обучения. На четвертом этапе проявляется постоянный интерес к деятельности мышления.

**G.A. Filmanova**

## Forms and stages of formation of cognitiveinterests in primary schoolchildren

### Summary

In article describes the stages of development of constant (uninterrupted) interest identified in preschoolers during the study. At the first stage, episodic and short-term interests arise, based on the children's perception of objects and events. At the second stage, the expansion of cognitive interests occurs due to increased attention to a large number of external signs, the same facts. At the third stage, cognitive interests are deepened as a result of increasing motivation and establishing causal relationships by penetrating the depths of the content of training. At the fourth stage, there is a constant interest in thinking.

**Redaksiyaya daxil olub:** 22.05.2020